**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 7**

**Bakı şəhəri** **17 aprel 2024-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Elşad Hidayət oğlu Əliyevin Dövlət Statistika Komitəsinin aparatında İnsan resursları və hüquq şöbəsinin Hüquqi təminat sektorunun müdiri vəzifəsinin tutulması üçün 2024-cü il mart ayının 6-da keçirilən ümumi müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Əliyev Elşad Hidayət oğlu Dövlət Statistika Komitəsi aparatında İnsan resursları və hüquq şöbəsinin Hüquqi təminat sektorunun müdiri vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il noyabr ayının 23-də elan edilmiş ümumi müsahibədə iştirak etmişdir. Müsahibə 2024-cü il mart ayının 6-da Dövlət Statistika Komitəsi aparatının İnsan resursları və hüquq şöbəsinin müdiri Vüsalə Alıyeva, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Lalə Qədirova və müstəqil ekspert Əliməmməd Nuriyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Əliyev Elşad Hidayət oğluna müsahibə komissiyasının üzvlərindən V.Alıyeva və L.Qədirova 13 bal, Ə.Nuriyev 14 bal vermiş və nəticədə iştirakçı 13.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 06.03.2024-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Əliyev Elşad Hidayət oğlunun 2024-cü il 06 mart tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsinin aparatında İnsan resursları və hüquq şöbəsinin Hüquqi təminat sektorunun müdiri vəzifəsinin tutulması üçün 2024-cü il mart ayının 6-da keçirilən ümumi müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: